# MƏMMƏDOV SƏFƏRƏLİ QURBAN OĞLU



Səfərəli Məmmədov 16 oktyabr 1963-cü ildə Masallı rayonunun Sərçuvar kəndində dünyaya göz açmışdır. 1981-ci ildə doğma kənddə orta məktəbi bitirmişdir. Həmin il hərbi xidmətə çağırılmışdır. O, iki il Minsk şəhərində qulluq etdikdən sonra, 1983-cü ildə ordudan tərxis olunur və Krasnodar şəhərinə gedir. Burada o, müəssisədənkənar mühafizə şöbəsində milis nəfəri kimi fəaliyyətə başlayır və az müddətdə xüsusi bacarığı ilə ad-san qazanır. Təsadüfi deyil ki o, xidmətinin ilk ilində iki dəfə mükafatlandırılır. 1988-ci ildə səmərəli xidmətini nəzərə alaraq, onu Bakı Xüsusi Orta Milis Məktəbinin (indiki Polis Akademiyası) qiyabi şöbəsində təhsil almağa göndərirlər. 1990-cı ildə həmin məktəbi müvəffəqiyyətlə bitirərək, leytenant rütbəsi alır. Bundan sonra xidmətini davam etdirmək üçün Vətənə qayıdır. Ona Bakı aeroportunda işləməyi təklif edirlər. O, inadla Qarabağın ən qaynar döyüş nöqtələrinə göndərilməsini təkid edir. Ağdam RDİŞ-ndə post-patrul xidmətində vzvod komandiri təyin edilən S.Məmmədov, ilk gündən döyüş meydanına atılır. Səfərəlinın əməliyyatları uğurla keçirdi. Sarışın olması, rus dilini səlis bilməsi onun təkbaşına ermənilərin arasına getməsinə şərait yaradırdı. O, Fərruxda, Ağbulaq fermasında, Qarakənddə neçə-neçə ermənini girov götürmüşdü. 1992-ci il fevral ayının 16-sı azğınlaşmış ermənilər Xocavənd rayonunun Qaradağlı kəndində görünməmiş faciə törədəndə, Səfərəlinın başçılıq etdiyi dəstə düşmənə sarsıdıcı zərbələr endirərək irəliləyirdi. Əsas mövqelər ermənilərin əlində idi. Səfərəlinın idarə etdiyi zirehli maşın qumbaraatanla vuruldu. Qəlpələr kəmərindəki əl qumbarasına dəydi. Səfərəli qəhrəmancasına həlak oldu. Masallı rayonunun Sərçuvar kəndində dəfn edilib. Subay idi. Azərbaycan Respublikası prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə Məmmədov Səfərəli Qurban oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilib. Masallı şəhərindəki küçələrdən biri və vaxtilə təhsil aldığı Sərçuvar kənd orta məktəbi onun adını daşıyır.